(Əvvəli 4-cü səhifədə).

# Öz qəlbinin tufanında...

Kənddə müxtəlif işlərdə işlədi, təsərrüfatla məşğul oldu. Dəfələrlə müxtəlif təşkilatlara iş tapmaq üçün üz tutdu. Ancaq hər dəfə vədlər elə sözlərdə qaldı. Böyük qardaşının yoldaşı onlara analıq edirdi, Xəyalə qayınlarına bir bacı, bir ana kimi davranar, azyaşlı oğlundan seçməzdi onları. Ancaq bu qayğıdan da məhrum olan Turalın dünyası çalxalandı sanki. Qəlbinin acıları qaysaq tutmamış Xəyalə gəlinlərini ağır xəstəlikdən sonra itirdi. Hər dəfə qardaşının körpəsinə baxdıqca Tural sanki buzdan biçilmiş bir libas geyinirdi əyninə. Günəşi görməzdi gündüz də, ulduzlar da uzaqlaşardı gecələr gözlərində. Acılar qəlbində bir təlatümlü dəniz kimi yırğalanardı sanki...

**O dənizdən bu dənizə tuş oldu...**

Turalın şəkillərinə baxıram. Heç bir şəkildə bu balanın üzündə təbəssüm, baxışında gülüş işarəsi görmədim. Gözlərinin dərinliyində sanki bir "qan çanağı" kimi acılarla yüklənmiş bir sahə gördüm. Baxışlar üreyin aynasıdır deyərlər. Görəsən, bu oğulun ürəyində heç xoş hisslər yuva salmamışdı ki, gözlərinə bir nikbinlik kölgəsi sala.

Tural vətənpərvər bir gənc idi. Torpaqların işğal altında olması onu həmişə düşündürərdi. Əsgəri xidmət illərində keçdiyi təlimlər zamanı da özünü orduya hazırlar, döyüş pozisiyalarında hiss edərdi. İnsanların elindən, obasından zorla çıxarılması, torpaqlarımızın əsir olması, şəhər və kəndlərimizin yağmalanması, viran olunması və xarabalıqlara çevrilməsi onun qəlbini həmişə sızladardı. Xocalı, Ağdaban... Ermənilərin törətdikləri yüzlərlə belə faciələr onun öz acılarını üstələyirdi öz qəlbində. Özünü həmişə döyüşə hazır əsgər sanırdı - əgər müharibə olarsa... Şair Məmməd Araz sanki əvvəlcədən duymuşdu müharibənin labüdlüyünü:

**Meşələrin sükütüna**
**batan kəndlər,**
**dərələrin boğazinda**
**yatan kəndlər,**
**nərələrdən qalxmaliydi.**

2020-ci ilin yayı siyasətdə təlatümlərlə dolu idi. Sanki su boğaza yığılmışdı. İyul ayının 14-də xalqın igid oğlu Polad Həşimovun şəhidliyi elə bil, xalqın yarasına duz basdı. Gənclər döyüş canavarına döndülər. Şəhidlərin qanının yerdə qalmaması və azğın düşmənlərdən qisas almaq üçün gənclər hərbi komissarlıqlara gedir, könüllü orduya yazılırdılar.

Senytabrın 27-də erməni işğalçılarının azğınlıqlarına qarşı müdafiə olunmaq üçün müharibə başlandı. Müharibəyə xalqın vətənpərvər oğulları böyük ürəklə qoşuldular. Vandal ermənilərdən qisas almaq arzusu ilə orduya yenidən xidmətə gedən gənclərdən biri idi Tural. Turalın kiçik qardaşı Əmrah iyul ayında əsgəri xidmətini başa vurub kəndə qayıtdı. Ailədə onun gəlişinə daha çox sevinən İlkin idi. İlkin qardaşlarına həm ata, həm ana kimi qayğı göstərirdi. Müharibənin labüdlüyünü hiss etsə də, evin əsgər balaları Turalın da, Əmrahın da bu müharibəyə hazır olduqlarını bilirdi. Sentyabrın 21-də Turalı Milli Orduya yenidən yola salanda da həyəcan keçirmişdi. Həm ata, həm ana kimi, həm də qardaş kimi dua etmişdi. Tural əvvəlcə Goranboy rayonuna gəldi və təlimlərə başladı. Bir həftəlik təlimdən sonra Tural öz silahdaşları ilə birgə Tərtər, Ağdərə istiqamətinə gəldi və döyüşlərdə iştirak etdi, Laçın döyüşlərində də fədakarlıqla döyüşdü. İllərin hirsi, düşmənə nifrət, lənət hissi, şəhidlərin qanının öcünü almaq onun döyüş şücaətini artırdı. Xocalı hadisələrinin qanlı səhnələrini göz önünə gətirən, döyüşə-döyüşə irəlilədikcə xarabalığa çevrilmiş əsarətdə olan torpaqlarımızın, kənd və rayonlarımızın görünüşü hər bir vətən fədaisi kimi onun da döyüş qətiyyətini artırdı.

Oktyabrın altısınadək döyüşdü...

**Sənə kimlər ağlasin**

Dünyada ölüm var, ölüm var... Şərəflisi, adisi, ölümün də hörmətlisi... Ən ağırı odur ki, əzizləri ölüm xəbərini eşidə, yolunu gözləyə. Yola salanda ana əlləri ilə arxasınca su atılaraq "yaxşı yol" deyilməsi, ölüsünün də nə qədər şərəfli olsa da yolunu gözləməsi ana üçün, ata üçün ən böyük əzabdır. Ancaq ölünün ruhunun ağlamamasıdır. Kəndə xəbər çatanda ki, Tural şəhid olub sanki təkcə rayon və kənd əhalisi deyi, qəbiristanlıqdakı ruhlar belə ağladı.

Bayrağımızla bəzədilmiş maşın kəndə daxil olur. Yol qırağındadır ata evi. Cismən nə ana qarşılayır, nə ata... Nə ata hayqırtısı var, nə ana naləsi... Canı narahat olan bacısının isə acıları sanki səsini batırıb. Ona ana olan Xəyalə gəlinin də ruhu göylərdə qarşılayır Turalı. Tural gəlir, boks üzrə dəfələrlə çempion olmuş idmançı, kəşfiyyatçı, zəhmətkeş, saf kənd balası, igid, qorxmaz döyüşçü, arzuları ürəyindəki acıların içində boğulan, sevdiyini, sevgisini belə buz libasına bürünmüş bədənində, ritmləri eşidilməyən yaralı ürəyində gömən Tural gəlir. Qardaşlar ağlayır, göz yaşları qəlblərində dənizə dönən qardaşlar... Kənd hüzn donu geyindi o gün...

Tural kənd qəbristanlığında dəfn olundu. Qapılarına bayraq asıldı. Sadə, zəhmət adamının qapısına. Bir də böyük Azərbaycan bayrağı şəhidin böyük qardaşına əmanət edildi.

**Nəfəsindən əriyirdi dağ qarı**
**Yenə elə dərə, düzən dünyadı...**

Tural Cəlilov bir şəhadətə qovuşan igid el oğlu kimi bütün qəbələlilərin xatirələrində yaşayır. Onu tanıyanların yaddaşında əbədiyyən yaşayan Tural Cəlilov döyüş şücaətinə görə Ali Baş Komandanımız İlham Əliyev tərəfindən "Vətən uğrunda" və "Laçının azad edilməsi" medalları ilə ölümündən sonra təltif edilmişdi. Onun kasıb ata evində bizi zəngin ürəyi ilə qarşılayan qardaşı İlkin və onun beşyaşlı oğlu ilə bərabər hazırladığı qəhrəmanın qəhrəmanlıq guşəsi o qədər zəngin idi ki... Turala aid xatirələrlə... Ən başlıcası isə burada hələ həqiqi hərbi xidmətdə olarkən itirdiyi, xidmətdən qayıdarkən nəfəsinə, onun boynuna dolanacaq qollarına həsrət qaldığı anası ilə qol-boyun olduğu bir şəkil də vardı. Şəhid guşəsinin ən təsirli şəkili...

Şəhidlik imtiyazlarında belə ruhu yetimliyini daddı. Axı şəhidin ata-anası, ailəsi olmasa o imtiyazlardan başqaları tam mənada istifadə edə bilməz. Bax, bu da şəhidimizin mənəvi yetimliyi...

İnsan ömründə daxilən onu didən bir kəlam var: Kaş ki... Turalın şəhid guşəsinə; şəkillərinə, şəkillərindən zillənən baxışlarına baxdıqca düşünürəm ki, görəsən onun adı gələndə "kaş ki..."lər düşünülürmü?! Müharibədən əvvəl arzuları yolunda müraciət etdiyi insanlar, qəlbini yaralayan vədlər, küskünlüklər, "kaş ki..."ləri dodaqlarda yaşadır yəqin ki. Vətən tarixini yazanlardan biri olan igid Tural Cəlilov onu tanıyanların, vətənpərvər insanların qəlbində əbədi yaşayacaq: nəsilbənəsil, tarix boyu...

**BİBİXANIM.**

# Bu, ilahidən mənə verilən güc idi sanki...

Bizim kimi adi insanlar ya dar çevrəsindəki bir qrup insanlara faydalı ola bilir, ya da elmincəsənət adamı olub, böyük bir kütləyə xitab edərək faydalı ola bilirlər. Lakin bir qrup vətəndaş var ki, onlar vətənin hər bir vətəndaşına fayda verirlər. Onlardan bəziləri ya canından keçib şəhid olur, ya da yaralanaraq qazi adı alırlar. Bunlar hərbçilərdir. Müsahibim qazi, kiçik leytenant Turqut Abdullayevdə bu qrupa daxildir. Qazimiz Turqut Abdullayevlə olan müsahibəni oxucularımıza təqdim edirik.

**Turqut, istəyərdim ilk öncə özünüzü oxucularımıza təqdim edəsiniz.**

- Mən, Abdullayev Turqut Xalid oğlu, 2000-ci il iyun ayının 8-i Qəbələ Rayon Vəndam qəsəbəsində anadan olmuşam. 2006-cı ildə Eldəniz Mehdiyev adına Vəndam 1 saylı tam orta məktəbinə daxil olmuşam. 2017-ci ildə həmin məktəbi bitirmişəm. 2017-ci il avqust ayının 8-i Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuşam. 2020-ci il sentyabr ayında Azərbaycan Respublikası və Ermənistan arasında başlanan münaqişə zamanı məndə könüllü şəkildə döyüşə yollandım. Bizə döyüş zamanı vaxtından əvvəl kiçik leytenant hərbi rütbəsi verildi.

**Necə oldu ki, hərbçi olmaq istədiniz? Uşaqlıqdan belə bir arzunuz var idi?**

- Uşaqlıqdan bir hərbçi olmaq mənim arzum idi. Hərbçi olmağı əmimdən ibrət götürmüşəm. Əmim-Abdullayev Eldar Əziz oğlunun Birinci Qarabağ döyüşlərində iştirak edərək, öz qəhrəmanlığından söz edildiyini eşidirdim və gündən-günə məndə hərbçi olmaq istəyi daha da artırdı. Əmim birinci Qarabağ müharibəsində ayağından güllə ilə yaralanmışdır. Mən bu qisası öz arzularıma əlavə etmişdim. Digər əmimin oğlu-Əzizli Əhliman Ağamirzə oğlu isə hərbi xidmətini yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Bir yandan əmim, bir yandan isə əmim oğlunun qisası digər əmim oğlanları kimi mənə də əzab verirdi. Mən gec-tez bu qisasları almaq üçün çox tələsirdim. Çox şükür ki, o gün mənə də qismət oldu. Ən azından əmimin və şəhid olmuş əmim oğlunun, eyni zamanda digər bizim can qardaşlarımızın qisasını aldıq deyə düşünürəm.



**Müharibə başlayanda hansı hissləri keçirdiniz? Qorxu hissi, yoxsa qələbə qazanmaq əzmi-hansı daha üstün idi?**

- Müharibə başlayan müddətdə məndə çox böyük bir həyəcan hissi var idi ki, görəsən bizə də qismət olacaqmı bu döyüşlərdə iştirak edib, öz analarımızın, bacılarımızın namus, qeyrət məsələsini həll etmək. Buna görə çox həyəcanlanırdım. Bizi gəlib könüllü olaraq seçəndə, mən müəyyən səbəblərə görə başqa bir yerdə idim. Gəldim ki, artıq seçiblər... Bu mənim üçün bir fürsət idi, amma mən bunu qaçırmışdım deyə düşündüm. Lakin günün sonunda mən istəyimə nail oldum və öz yoldaşlarımla döyüşə yollandım.

Əlbəttə ki, biz qələbə qazanacağımıza inanırdıq.

**Siz müharibə başlayarkən, ilk döyüşə qatılanlardansınız. Əvvəlcədən valideynlərinizin nəsihət və tövsiyələrini almışdınızmı?**

- Biz döyüşə qatılanda mənim valideynlərimin xəbəri yox idi. Mən evlə əlaqə saxlayanda valideynlərim hər dəfə soruşurdular: "Sizi aparacaqlar?"

Əlbəttə ki, onlar valideyndirlər, amma mən bunun da tədbirini əvvəlcədən görmüşdüm, insan yalan danışmaz... Ancaq bəzən "müqəddəs yalanlar"a ehtiyac duyulur... Vəziyyət elə olar ki, sən yalan danışmağa məcbur olarsan. Mən də valideynlərim pis olmasınlar deyə, yalan danışmağa məcbur idim. Döyüş başlayandan bir müddət sonra məndən xəbərləri oldu və bu vaxt atam mənə söylədi ki, "Nə olursa, olsun sən bizə hər şeyi doğru söylə". Mən artıq o gündən sonra onlara həqiqəti söylədim.

**İkinci Qarabağ döyüşlərinin necə xatırlayırsınız? Hansı şəraitdə yaralandınız?**

- İkinci Qarabağ müharibəsini belə xatırlayıram: " Oktyabr ayının 6-sı biz Füzuli şəhərinə yollandıq. Füzuli şəhərinin Şükürbəyli kəndində öz mövqelərimizi tutduq. Müəyyən vaxtdan sonra biz digər istiqamətlərə yollanacaqdıq. Lakin düşmən təxribat törədərək, bizim mövqelərimizi Qrad tipli raketlərdən atəşə tutdu. Bu zaman bir çox yoldaşlarımız, müxtəlif dərəcəli yaralanmalar nəticəsində hospitala göndərməli olduq. Daha sonra biz öz mövqelərimizi dəyişmək məcburiyyətində qaldıq. Çünki, düşmənin növbəti təxribatları gözlənilirdi. Müəyyən müddət sonra biz Cəbrayıl rayonuna yollandıq. Bir kəndi ələ keçirikdən sonra biz, oktyabrın 22-də Xocavənd rayonuna yollandıq və buraya çatdıqdan sonra öz mövqelərimizi tutduq və yerləşdik. Biz Xocavənd rayonunun Ağcakənd kəndində düşmənlə üz-üzə öz mövqelərimizi müdafiə edərək, növbəti döyüş tapşırığını gözləyirdik. 27 oktyabr səhər saat $09^{00}$-da mən müşahidə postunu dəyişməyə məcbur oldum. Mən özümlə 5 əsgər götürərək postu dəyişməyə qalxdım. 3 saat ərzində təyin olunmuş mövqeyə çatdıq, artıq oraya çatanda bizim paltarlarımız yaş olmuşdu. Biz paltarlarımızı dəyişdik. Mən özümlə 3 əsgər götürərək birazda yuxarı qalxıb posta nəzarətçi təyin etməli idim. Biz həmin nöqtəyə çatmağa az qalmış, düşmən minaatandan istifadə edərək, bizi vurdu. Buna baxmayaraq, mən özümü itirmədim, gözümü açaraq, qarşımdakı daşın arxasına keçdim. Mənimlə birgə iki əsgərim də yaralanmışdı. Onlardan birinin vəziyyəti yaxşı deyildi. Bu zaman o mənə "Komandir, məni burda qoy get", dedi. Mən əlbəttə ki, bunu edə bilməzdim. Cibimdən "Juqut" çıxararaq onun çox qan itirəcək yerlərini bağladım. Mənim özümün də ayaqlarım, əllərim, sifətim, ağzım və barmağım pis vəziyyətdə idi. Lakin buna baxmayaraq, mən özümü itirmədim, bu ilahidən mənə verilən bir güc idi sanki. Özümlə yanaşı, öz əsgərimi də oradan çıxamağa nail oldum. Sonra isə biz sanitar maşınlarla ilk tibbi yardım üçün Cəbrayıl rayonuna gəldik. İlk tibbi yardımdan sonra bizi əməliyyat otaqlarına apardılar".

**Ömrünüzün sonuna kimi unuda bilməyəcəyiniz hansı döyüş səhnəsini oxucularımızla bölüşə bilərsiniz?**

- Mən ümumiyyətlə, ömrümün sonuna kimi bu döyüş səhnələrini unutmayacam. Döyüş səhnələrindən ən çox düşmənin mövqelərinə müxtəlif tipli silahlardan istifadə edərək, atəş açdığımız və onların geri çəkilərək, qışqıraraq qaçdıqları anları heç vaxt unutmaram. Və bunu da sizlərə bildirim ki, ermənilər çox qorxaq bir millətdir. Onların şərəfi, namusu heç vaxt olmayıb, ola da bilməz!

**Qalib ordunun hərbi qulluqçusu olmaq necə hissdir?**

- Qalib bir ordunun hərbi qulluqçusu olmaq əlbəttə ki, çox qürurverici bir hissdir. Hər şeydən öncə bizə bu günləri yaşadan Allahımıza şükür edirik, sonra isə prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə çox minnətdaram ki, mən də bu döyüşlərdə iştirak etdim, əlimdən gələn hər bir şeyi etdim və qazi oldum. Mən özümü çox şanslı hiss edirəm.

**Son olaraq, bu şanlı həyat yolunun təcrübələrinə dayanaraq gənclərimizə hansı tövsiyələrinizi vermək istəyərdiniz?**

- Mən bu gün bütün gənclərimizə onu demək istəyirəm ki, "Əziz gənclər, çalışın bu döyüşlərdə iştirak edən hərbçilərimizi heç vaxt unutmayın və unutdurmağa imkan verməyin! Biz bu günümüzü, sabahımızı hərbçilərimizə borcluyuq. Mən bunu özüm hərbçi olduğum üçün demirəm, sadəcə gələcək sizlərin əlindədir. Unutmayaq və unutdurmağa imkan verməyək. Şəhidlərimizi tanıyın və onları hər zaman anın. Çünki, onlar sizin indi rahat nəfəs almağınız, rahat yaşamağınız üçün öz canlarını fəda etdilər. Bu kəlməni isə əsla yadınızdan çıxarmayın - ŞƏHİDLƏR ÖLMƏZ, VƏTƏN BÖLÜNMƏZ! Qarabağ Azərbaycandır! Bu belə də qalacaq. Hər kəsə minnətdaram!"

**Mən də sizə minnətdaram, Turqut bəy. Müsahibəyə görə təşəkkür edirik!**

Onu da qeyd edək ki, Turqut Abdullayev, döyüşlərdə göstərdiyi şücaətinə görə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən, "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

**İlahə RƏHİMOVA,**
**"Qəbələ"**